# Mənzərə

***Deyəcəksiniz bəs təbiətin qoynunda-yam, oradan gözəl mənzərələr paylaş-maq istəyirəm, hə? Axı mənzərə dedik-də gözlər önünə ilk gələn təbiət gözəllikləri-dir. Kaş ki, elə dediyim kimi də olardı. Dünən təbiətin qoynunda olardım. Heç yaşıllıqları, gül-çiçəyi demirəm, bir qayanın başında boz rəngdən ibarət böyük daş parçasına baxar-dım. O daş parçasına o qədər baxardım ki, zamanın ondan qopardığı, küləklərin ona qaytardığı cizgilərlə başımı qatardım. Bax-maqdan gözlərim yol çəkərdi, uzaqlara apa-rardı məni. Burada da boz qayalıqlardan baş-qa heç nə görməzdim. Saatlarla o qayalara tamaşa edərdim. Boz daşlar, oxşar daşlar, oxşar rənglər...***

İnanın ki, yorulmazdım. Baxardım, baxardım, bir qədər irəliyə addımlayardım. Başqa bir mənzərə ilə-yaşıllıqlarla, təbiətdən min rəng alan təbiət möcüzələri ilə qarşılaşma-sam da, addımlayardın. O ümidlə addımlayardım ki, indi çı-xar, bir azdan çıxar o mənzərələr qarşıma. Lakin ucsuz-bu-caqsız çöllərdə irəlilədikcə bitməyən bu daşlı-qayalı ərazi-lərdə yenə də sıxılmazdım. Böyük ümidlərlə qarşıya gedər-dim...

Saatlarla, günlərlə, aylarla gedərdim. Bu boz daşlı-qaya-lı, həm də yeriməyə mane olan yerlərdən keçərkən yıxılsam da, dizlərimdən qan süzsə də, irəliləyərdim. Kaş ki, təbiətin qoynunda olardım. O boz rəngli daşların əhatəsində olar-dım. Onlardan başqa heç nə görməzdim. İnanın nə yorular, nə bezərdim. Əsla, əsla, əsla...

Həyatda elə mənzərələr var ki, onlara baxandan sonra daşın-kəsəyin qədrini bilirsən. Deyirsən ki, ay gözlərim, ba-xın o daşlara-kəsəklərə, la-kin bu mənzərələri görməyin. O daşlara baxmaq sizi kor et-məz. Aylarla, illərlə də baxsanız yor-maz, kor etməz. Amma bu mənzərə-lər bir andaca ada-mı kor edir. Özünə korluq arzulayırsan, görməmək üçün...



Metroda qatar-dan yenicə çıxıb es-kalatora tərəf yön al-mışdım ki, bir hün-dürboy oğlan, iti ad-dımlarla yanımdan ötüb, özünü eskala-tora yetirməyə can atırdı. Yanımdan elə sürətlə keçdi ki, küləyinin məni yıxmadığına şükür etdim. Dedim ki, yəqin nə isə işi var da, tələsir. Nə olacaq, qoy sürətlə keçsin, qaçsın, uçsun, cavandır. Biz də cavan olmuşuq da. O qədər qaçmışıq ki... Təbii ki, küləyimiz heç kimi yıxmadan.

Mən də bu oğlanın ardınca çatdım eskalatora. Elə oldu ki, ard-arda dayanmalı olduq. Eskalatorda da nə edəsən axı ki, vaxt keçə, yol bitə. Başımı qaldırdım, gözüm bu oğlanın başına sataşdı. Baş nə baş. Ülgüclə tər-təmiz qırxılmış müa-sir bir baş. Lakin qarşıda qalan bir tutam saç rezinlə möh-kəm yığılıb düşür oğlanın boynunun kökünə. Dedim, maşal-lah. Yəqin dəbdir, ayaqlaşır, nə etsin. Heyrətdən başımı aşağı saldım. Diqqətimi qarşımda kiminsə əməlli-başlı rəq-si özünə çəkdi. Başımı qaldıranda gördüm ki, bu oğlan ta yerində dura bilmir. Dedim, hə, bayaqkı yanımdan sürətli keçid bu musiqinin təsiri imiş ey, yoxsa bu oğlan hara tələ-sərmiş ki. Anladım...

Ətrafdakılar da ona tamaşa edir, çiyinlərini çəkir, gülüm-səyirdilər. Onunsa qulağında qulaqcıqlar, dünyadan xəbəri yoxdur. Sanki biz yox imiş kimi özünü aparırdı. Sanki eska-lator bu anlarda yalnız onun üçün işləyirdi.

Yanımda yaşlı bir qadın da dayanmışdı. Əyilib qulağıma dedi ki, biz bunlarla hara gedirik?..

Maraqlıdır, doğrudan, biz bələləri ilə hara gedirik?

Elə bu mənzərəni düşünə-düşünə evə üz tutanda de-dim, Allah, kor olasan belə mənzərələrlə qarşılaşmayasan. Sonra da dedim əşi, kor niyə olum axı. Belə mənzərə ilə qarşılaşınca aylarla dağa-daşa baxmağı gərək nəsib edər-din bizlərə, İlahi! O boz daşların mənzərəsi bu mənzərədən dəfələrlə ürəkaçıcıdır. Arzuya bax... Harada idi o xoşbəxtlik ki, bu mənzərəni görməkdənsə, o mənzərəni görərdik...

***Mətanət MƏMMƏDOVA***

**FELYETON**